# Çin yazıçısı Van Men yaradıcılığının ideya-bədii xüsusiyyətləri

**Nərgiz Kərimova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: nergizkerimova622@gmail.com

**Annotasiya.** Tədqiqata cəlb olunan yazıçının yaradıcılığı ilk dəfə olaraq orijinaldan Azərbaycan dilinə tərcümə materialları əsasında araşdırılmışdır. Van Menin əsərlərinin əsas mövzusunu ziyalılar və partiya işçiləri, şüurun doqmalardan uzaqlaşaraq yeni ideyalara yol açması, şəxsiyyətin inkişafı və s. təşkil edir. Bundan əlavə, sosial mövzular, sadə insanın qayğıları, ağrı-acıları, çəkdiyi mənəvi iztirablar da Van Men nəsrinin əsas mövzularındandır. Açıq didaktiklik və sxematiklik onun hekayələrinin əsas cəhətlərindəndir. Onun əsərlərində aktuallığı ilə seçilən dərin mövzular qələmə alınmışdır. Araşdırmada yer alan Van Menin "Gölün dərinliyi", "Göl axtarırıq", "Dəniz haqqında xəyallar", "Çalı" və s. əsərləri mühüm məsələləri əks etdirməkdədir. Tədqiqat işinin məqsədi orijinaldan tərcümə olunan əsərlərin analizi və mövzu müxtəlifliyinin təhlilə cəlb olunmasıdır. Tədqiqat işində təhlil metodundan istifadə olunmuşdur.
**Açar sözlər:** Van Men, yaradıcılıq, ədəbi əlaqə, əsər

**Məqalə tarixçəsi:** göndərilib – 14.12.2022; qəbul edilib – 24.12.2022

# Idea-artistic characteristics of creativity of the Chinese writer Wang Meng

**Nargiz Karimova**
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: nergizkerimova622@gmail.com

**Abstract.** The creative work of the writer involved in the research was investigated for the first time based on the materials translated from the original into Azerbaijani.The main themes of Wang Meng's works contain intelligentsia and party workers, the departure of consciousness from dogmas and making way for new ideas, personality development and etc. Open didacticism and sketchiness are the main features of his stories. His works reveal deep themes that are distinguished by their relevance. Wang Meng's stories "The depth of the lake", "Looking for the lake", "Dreams about the sea", "The bush" and other works included in the study, reflect important issues.
The purpose of the research work is the analysis of works translated from the original and the involvement of the diversity of topics in the analysis. The analysis method was used in the research work.
**Keywords:** Wang Meng, creative work, literary relation, work

**Article history:** received – 14.12.2022; accepted – 24.12.2022

## Giriş / *Introduction*

Çinin görkəmli yazıçılarından olan Van Men 1934-cü ildə Pekində ziyalı ailəsində anadan olmuşdur. Yazıçının uşaqlıq illəri 1937-1945-ci illərdə Çinlə Yaponiya arasında baş vermiş müharibə dövrünə təsadüf etdiyindən çətinlik və ehtiyac içərisində keçmişdir. Sonradan atasının bu amansız müharibə barədə ona dediyi sözlər əbədi olaraq yazıçının yaddaşına həkk olunmuşdu: "Sənin uşaqlığın xarici ordu tərəfindən işğal edilmişdir" [1, s.3]. Müharibə illəri onun yazıçı ömrünə, yaradıcılığına və ədəbi məhsuldarlığına, əsərlərinin bədii keyfiyyətinə, Van Menin yazıçı təfəkkürünün forma-

laşmasına böyük təsir göstərmiş, əsərlərinin meydana gəlməsində ilham qaynağı olmuş, dərin psixoloji izlər qoymuşdur.

Van Menin əsərləri Fransa, Yaponiya, Almaniya, İtaliya, ABŞ, Rusiya və s. ölkələrdə dəfələrlə nəşr edilmişdir. Ən yaxşı hekayə nominasiyası üzrə dəfələrlə ciddi ədəbi müsabiqələrin qalibi olmuş, mükafatlara layiq görülmüşdür. «Xalq ədəbiyyatı» (人民文学) nəşriyyatı yazıçının əsərlərini “Van Menin seçilmiş əsərləri” adı altında 23 cilddə nəşr etmişdir [4].

**Əsas hissə / *Main Part***

Van Men nəsrinin əhəmiyyətli hissəsinin yaranması məhz Sincan dövrünə təsadüf edir. Burada onun qələmə aldığı hekayələr, povestlər, kiçikhəcmli novellalar 1984-cü ildə “İli çayının sahilində” adlı kitabında dərc edilmişdir. Bu əsərlərdə yazıçı ilə bağlı olan hadisələr reallıqda olduğu kimi verilmir, müəllif gözü ilə subyektiv baxış bucağından təqdim edilir və bu təqdimatın həqiqiliyinə, səmimiliyinə oxucu qətiyyən şübhə etmir. Avtobioqrafik səciyyə daşıyan əsərlərindən söz açdıqda yazıçının Sincan motivli yaradıcılığını xatırlamamaq mümkün deyil. Sürgün dövründə o, uyğur dilini öyrənmiş, buranın insanlarını və təbiətini sevmişdir.

Yaşadığı məhrumiyyətlərlə zəngin, faciəli iki onillik Van Menin həm həyatında, həm də yaradıcılığında dərin iz buraxmışdır. Bu müddət yazıçının həyatından böyük bir dövrü silmiş, zamanlar arasında əlaqəni kəsərək hadisələrin məntiqini pozmuşdur. Təsadüfi deyil ki, son əsərlərində yazıçı sanki keçmişlə müasir dövr arasında əlaqəni bərpa etməyə, zamanlar arasına körpü salmağa çalışır. 80-ci illərin ortalarından etibarən yazıçının bədii yaradıcılığında axtarışlar yeni istiqamətdə inkişaf edir. Belə ki, yazıçı real həyati təsvirlərdən dərin fəlsəfi düşüncələrə doğru istiqamət götürür, daha çox insanın daxili-mənəvi dünyasına baş vurur. Məhz bu dövrdə o, öz məşhur əsərlərini – "Çalı" , "Çətin görüş", "Dənizi dinləyərək", "Dəniz haqqında xəyallar" və s. yaradır. Bu əsərlərdə yazıçı öz qəhrəmanlarını, onların hiss və həyəcanını yüksək bədii boyalarla əks etdirir.

Van Men "Yaşasın gənclik" (1979), "Fəaliyyət insana çevrilir", "Mövsümlərin seriyası" "Eşq fəsli" (1992), "Boşluq fəsli" (1994), "Tərəddüd fəsli" (1995) romanlarını, "Çalı" və "Kəpənək" (1980) povestlərini qələmə almışdır.

Van Menin əsərlərinin əsas mövzusunu ziyalılar və partiya işçiləri, şüurun doqmalardan uzaqlaşaraq yeni ideyalara yol açması, şəxsiyyətin inkişafı və s. təşkil edir. Bundan əlavə, sosial mövzular, sadə insanın qayğıları, ağrı-acıları, çəkdiyi mənəvi iztirablar da Van Men nəsrinin əsas mövzularındandır. Açıq didaktiklik və sxematiklik onun hekayələrinin əsas cəhətlərindəndir. Onun əsərlərində qəhrəman özünü cəmiyyətin ayrılmaz tərkib hissəsi sayır və cəmiyyət tərəfindən müəyyən edilən qayda-qanunlar ("Paxla" hekayəsində) çərçivəsində düşünüb hərəkət edir. Özünü cəmiyyətdən təcrid etmək, dağlara çəkilib qaranlıq mağaralarda sükuta dalmaq, asketik həyat tərzini tərcih edib dərvişanə ideallar uğrunda canını fəda etmək onun qəhrəmanlarına yaddır.

Onun qəhrəmanları real həyatda yaşayırlar, hamı kimidirlər, yəni o mənada ki, hər kəs kimi onların da maddi məişət-qayğıları vardır, onlar da səhv edə, yanlış qərarlar verə bilərlər. Müəllif onları "yaxşı" və "pis" deyərək damğalamır, bu barədə nəticə çıxarmağı, qərar verməyi oxucunun öhdəsinə buraxır. O, sadəcə, təsvir edir, yazıçı neytrallığını qoruyub saxlamağı bacarır. Oxucusuna yüksək əxlaqi kriteriyalarla qiymətləndirmək hissini aşılayır.

“Çalı” povestində süjet qısa olaraq belədir: qəhrəman Çao Çyanli ata əyləşir və dağa qalxır. Bəli, bütün süjet bundan ibarətdir. Əsərin gücü fabulada, epizodlardadır. Burada süjet adi hadisə deyil. At və dağ Çin dünyagörüşündə özünəməxsus mənaları ifadə edir. Dağa qalxmaq burada fiziki anlamda deyil, fəlsəfi anlamda işlədilir, sakral mahiyyət daşıyır.

Onun nəsri 50-ci illərdə qələmə aldığı kiçik hekayələrdən başlayaraq, 80-ci illərdə dərin fəlsəfi səciyyə daşıyan böyük əsərlərin yazılmasınadək uzun və mürəkkəb inkişaf yolu keçmişdir. Bu əsərlər özündə müasir Çin ədəbiyyatının fəlsəfi esse, roman-pritça, psixoloji-modernist nəsr kimi fərqli istiqamətlərini ehtiva edir. Yeni bədii-estetik meyilləri özündə əks etdirən Van Men yaradıcılığı Çin ədəbi-bədii fikrinin zənginləşməsində özünəməxsus rol oynamışdır.

Van Menə görə, yaradıcı güc, yazıçının ilham mənbəyi onun öz daxili aləmindədir. Eyni zamanda yazıçı bildirir ki, sənətkar öz "təmiz qəlbini" qorumalıdır, burada təmizlik azadlıq sözüylə sinonimlik təşkil edir. Məşhur avstriyalı yazıçı Stefan Sveyq deyirdi ki, azad insan məhsuldar düşünür, asılı insan keyfiyyətli nəsə yarada bilməz. Yəni yazıçı azadlığını itirəndə, mənəvi cəhətdən büdrəyəndə, öz yolunu azanda, şər qüvvələrlə əməkdaşlığa girişəndə dəyişir, başqalaşır, yadlaşır və qəribəsi də odur ki, çox zaman özü bu dəyişikliyin fərqində olmur, olsa belə, geridönüş, xilas haqqında düşünmür, düşünsə belə, özündə güc, təpər tapıb keçmişinə qayıda bilmir. Yazıçının bu mövqeyi müasir braziliyalı yazıçı Paolo Koelyonun məşhur "Kimyagər" əsərindən möhtəşəm bir sitatı xatırladır: "varlığımızın hansısa anında biz öz həyatımıza nəzarəti itiririk və bundan sonra həyatımızı tale idarə edir" [3, s.22]. Əslində, bu qısa cümlə çox dərin psixoloji-mənəvi mətləblərdən xəbər verir. Bəli, insan dəyişməyə meyillidir və bu dəyişiklik heç də həmişə müsbət istiqamətdə baş vermir. Bəzən insan əldə etdiyi uğurun təsirindən öz mənəvi müvazinətini itirir, maddi rifah və karyera yüksəlişi naminə hər şeyə can atır və nəticədə əxlaqi-mənəvi deqradasiyaya məruz qalır. Belə insan əgər yazıçıdırsa, onda bu dəyişmə onun yaradıcılığına sirayət edir, yaradıcılıq böhranı, yazıçı tükənmişliyi baş verir. Artıq yazıçı yeni nəsə yarada bilmir, ən yaxşı halda, keçmiş təcrübəsinə müraciət edərək özünü təkrar edir, azad olduğu vaxtlarda yaratdığı əsərlərin kölgəsinə sığınır. Sənət, ədəbiyyat ölkəsində artıq bu sənətkara yer yoxdur, o, vətəndaşlıqdan məhrum edilmişdir.

Van Men tərəfindən irəli sürülən ikinci ziddiyyətli məsələ özünəvurğunluq, narsizm, özünəqibtə ilə bağlıdır. Yazıçıya görə, belə rəftar yazıçını gec-tez tükədir, ədəbi yaradıcılığın ifadə qabiliyyətini, keyfiyyətini, məhsuldarlığını aşağı salır. Bunun əksinə, yazıçı təvazökarlıq və özünütənqidin vacibliyini qeyd edir. Yazıçı bu mövzuya özünün "Şümşadın ölən kökləri" əsərində toxunur. Van Men ideal olanla real olan arasında ziddiyyətə diqqət çəkərək qeyd edir ki, hər bir insan yaradıcı şəxs olmazdan əvvəl, adi vətəndaşdır, insandır. O da hamı kimi, adi insan ömrü yaşayır, sosial problemlərlə üz-üzə qalır, onun da ailə-məişət qayğıları var. Hətta bəzən yazıçı o qədər cəmiyyət içərisinə qarışır ki, müəyyən zaman kəsiyində öz yazıçılığını unudur.

Yazıçı əsər yazmaqla, öz həyat həqiqətlərini insanlıq qarşısında açıqlayır. Buna yazıçının bir sıra əsərlərini misal çəkmək olar: "Görüşün çətinliyi", "Məyusluq", "Bu dünyanı dolanaraq", "Gecə böyük şəhərdə", "Ən qiymətli" və s.

Van Men bu qənaətdədir ki, ədəbiyyatı yönəldən şəxslər daima yazıçılara dəstək durmalı, bu sahədə ruh yüksəkliyini aşağı salmamalıdırlar. Çünki milli ruhun formalaşmasında ədəbiyyatın və incəsənətin rolu çox böyükdür. "Göllərin dərinliyi", "Çalı", "Həyata keçməyən", "Şümşadın ölən kökləri", "Yay portreti", "İlahi müğənni", "Dəniz haqqında xəyallar" kimi əsərlər yazıçının yuxarıdakı fikirlərini daha geniş və ətraflı şəkildə izah edir. Yazıçıya görə, sənətkar üçün əsas olan cəmiyyətlə harmoniyada olmaqdır, lakin bəzən onların arasında ziddiyyət yaranır ki, yazıçı bunu normadan kənar hal kimi qiymətləndirir.

Ədəbiyyatda rəmzlərdən, simvollardan istifadə etməklə qəhrəmanların, hadisələrin təsvir edilməsi geniş yayılmış üsullardan biridir. Simvollar yazıçının yaratdığı obrazların dərinləşməsinə kömək edir, bu mənada, Van Men simvolizmi personajların psixikasının alt qatına enməyin bir yolu hesab edilməlidir [2]. Bu simvollar yazıçı axtarışlarını, ümid və ideallarını ifadə edir. Van Menin əsərlərində dəniz, göl, ay, günəş, dağ, yağış, quş, balıq və s. bu kimi ənənəvi simvollara rast gəlinir. Simvol seçimində qədim Çin ənənəsi də yazıçının köməyinə gəlir. Məsələn, su rəmzindən Van Menin bir çox hekayə və povestlərində geniş istifadə edilib. "Gölün dərinliyi", "Gölün səthi", "Göl axtarırıq", "Dənizi dinləyərək", "Dəniz haqqında xəyallar", "Dəniz", "Qış yağışı", "Çalı", "Daşkənd səhərində yağış", "Yağış" və s. əsərlərində biz su rəmzinin – göl, dəniz, yağış kimi fərqli çalarlarda istifadəsinin şahidi oluruq.

Van Menə görə, həyat və yaradıcılıq vəhdət təşkil edir. Bu bütövlüyü yazıçı "Gölün dərinliyi" əsərində bədii cəhətdən təcəssüm etdirir. İnsanlarla ünsiyyət, təbii ki, əgər o, öz dünyasına qapılmaq kimi xəstəliyə düçar olmayıbsa, yaradıcı şəxsiyyət üçün vacib amildir. Amma bir cəhəti də unutmamalıyıq ki, normaya uyğun gəlməmək, standartlardan fərqli olmaq istedadın təbiətinə xas cəhətlərdir. İstedadlı insanda dünyaya bir uşaq sadəlövhlüyü ilə baxmaq, əksəriyyətin qəbul etdikləri ilə razılaşmamaq xüsusiyyəti var. O, daim ətraf mühitlə konfliktdədir. Bu konfliktin aradan qaldırılmasında

ailənin rolu böyükdür. Belə ki, cəmiyyətlə dahi arasında körpü rolunu onun həyat yoldaşı oynayır. Bu məqamda biz nəinki təkcə ailə daxilində, eləcə də cəmiyyət içərisində, yazıçı-toplum münasibətlərinin tənzimləsində qadının mühüm roluna şahidlik edirik [5].

"Göl axtarırıq" hekayəsində simvolik göl obrazı vasitəsilə yazıçı həyatın mənası, yaşam haqqında fikirlərini açıqlayır. Əsərin qəhrəmanları sanatoriyada istirahət edən yaşlı cütlükdür. Yaxınlıqda göl olduğunu eşidən qəhrəmanlar onu tapmağa yollanırlar. Uzun və çətin axtarışlardan sonra gölü tapan yaşlı insanlar anlayırlar ki, dəyərli və maraqlı olan heç də gölün özü deyil, ona gedən yoldur, gözəllik və maraq prosesin özündədir. Burada yazıçı demək istəyir ki, insan həyatının mənası daim axtarışda olmaqdır, nələrisə əldə etməyə çalışmaqdır. Bu yolda qazanılan uğurlar da, itkilər də vahid məqsədə çatmaq üçündür. Yolçu büdrəyəndə, azanda ruhdan düşməməli, yolundan qalmamalıdır, özündə güc taparaq daha yüksək həvəslə irəliləməli, məqsədə doğru addımlamalıdır. Uğursuzluğun təcrübəyə çevrilməsi də bir uğurdur . Yuxarıda adıçəkilən hekayədə də yazıçı göl simvolundan istifadə edərək məhz bunu çatdırmaq istəyir, öz qəhrəmanları ilə göl arasında sirli-sehrli əlaqənin mövcudluğunu göstərir.

Dəniz simvolu Van Menin "Dəniz haqqında xəyallar" əsərində müstəqil bir varlığa və müstəqil estetik dəyərə malikdir. Dəniz əbədilik rəmzidir, o, daim olub və olacaqdır. O, özündə həyatın can atdığı əsrarəngiz sonsuzluğu ehtiva edir. Dəniz simvolu əsərdə baş qəhrəmanın xəyallarını təcəssüm etdirir. Əsərin qəhrəmanı Miao bütün həyatı boyu dənizlə görüşməyə can atır, xoşbəxtliyə, əbədi səadətə çatmağın yolunu bunda görür. Lakin gözlənilənlərin əksi baş verir. Dənizin sirli mətləblər haqqında onu agah etdiyi biliklər, təəssüf ki, qəhrəmanın sevincinə deyil, acı çəkməsinə səbəb olur. Lakin bu acı onu həyat haqqında daha dərin müşahidələrə, düşüncələrə qərq edir. Miao həyatın mənası ilə bağlı suala cavab verməyə çalışır, bu, onun daxili dünyasında, ruhunda ziddiyyətlər, təbəddülatlar yaradır.

## Nəticə / *Conclusion*

Van Men yersiz və süni təsvirçiliyə meyil etmir. O, başqalarının adi bildiyi həyat hadisələrinə, üzərindən ötüb keçdiyi incə məqamlara işıq tutmaqla obrazlarının xarakterini, daxili dünyasını açıb göstərir. Bəzən adi bir epizodla Çin cəmiyyətinə xas dərin sosial problemi qabardaraq oxucunun diqqətinə çatdırmağı bacarır. Çünki yazıçı öz xalqının milli mentallığının spesifik cəhətlərini, onun problemlərini dərindən bilir. Van Menin nəsri tərzi baxımından esseistikdir, ironik və subyektiv xarakter daşıyır, onda güclü satirik axın var, eyni zamanda milli köklərə bağlılığı onun əsərlərini ən yaxşı klassik nümunələrə bənzədir. O, müasir Çin ədəbiyyatına ən çox təsir edən yazıçılardan hesab edilir.

## Ədəbiyyat / *References*


1. С.А.Торопцев. Ван Мэн. Избранное. Радуга, 1988.
2. Символика Ван Мэна как художественный язык его прозы / Ван Мэн в контексте современной китайской литературы. Сост. и отв. ред С.А.Торопцев. М.: Изд. РАН, 2004, -1,12 П.Л.
3. Paolo Koelyo. "Kimyagər" roman. Bakı, Qanun, 2018.
4. Ван Мэн: «Чувствую, что попал к старым друзьям» // «Иностранная литература», 2005, № 4.
5. Ван Мэн. Рассказы // «Иностранная литература», 1986, № 9.

# Идейно-художественная характеристика творчества китайского писателя Ван Мэна

**Наргиз Керимова**
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: nergizkerimova622@gmail.com

**Резюме.** Творчество привлеченного к исследованию писателя впервые исследовано на основе материалов, переведенных с оригинала на азербайджанский язык. Главные темы произведений Ван Мэна – интеллигенция и партийные работники, отход сознания от догм и освобождение новых идей, развитие личности и т.д. Открытая дидактичность и схематичность – главные черты его рассказов. Его работы раскрывают глубокие темы, отличающиеся актуальностью. Рассказы Ван Мэна «Глубина озера», «В поисках озера», «Сны о море», «Куст» и другие произведения, вошедшие в исследование, отражают важные проблемы.
Целью исследовательской работы является привлечение к анализу произведений, переведенных с оригинала, и многообразие их тем. В исследовательской работе был использован метод анализа.
**Ключевые слова:** Ван Мэн, творчество, литературная связь, произведение